BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2009

# TARİX

## SƏFƏVİ DÖVLƏTİNİN PORTUQALİYA VƏ İSPANİYA İLƏ MÜNASİBƏTLƏRİ

**A.B.BAXŞƏLİYEV**
*Sumqayıt Dövlət Universiteti*

Böyük coğrafi kəşflərlə Portuqaliya Şərqdə geniş mülklər, müstəmləkələr ələ keçirmiş, İran körfəzinin mühüm ticarət məntəqələrini tutduqdan sonra Səfəvi dövlətini də Hind okeanına çıxışdan məhrum etmişdir. Ancaq buna baxmayaraq bu dövlətlər arasında iqtisadi və siyasi maraqlarına, mənafelərinə uyğun qarşılıqlı diplomatik münasibətlər də mövcud olmuşdur.

Portuqaliyalılar başqa Avropa ölkələrindən Hind okeanı sularına daha tez daxil olmuşdular. Hələ 1497-ci ildə Portuqaliya dənizçisi Vasko da Qama Ümid burnunu keçmiş, 20 may 1498-ci ildə onun gəmiləri Kalikut limanında lövbər salmışdı. O, 1498-ci ildə Avropadan Hindistana birbaşa dəniz yolunu kəşf edir [39, 127, 128]. 1507-ci ildə Alfons de Albukerkin başçılıq etdiyi Portuqaliya donanması İran körfəzinə daxil olub Hörmüz sahilinə yan almışdı [9, 35]. Bu zaman portuqaliyalılar dənizçilik sahəsində çox böyük uğurlar əldə etmişdilər. Xüsusilə kompasın ixtira edilməsi dənizlərdə, okeanlarda onlara çox köməklik etmişdi. Nəticədə Portuqaliya dənizçiləri Afrikanı dövr edərək Hindistan sahillərinə çatmışdılar. Bu vaxt Fars körfəzindəki Hörmüz adası da istər keçmişdə, istərsə də indi strateji baxımdan xüsusi əhəmiyyət kəsb edirdi, buradakı hər bir ada hərbi, həm də ticarət bazası hesab olunurdu. Bu vaxt adalar və körfəz sahili ayrı-ayrı yerli əmirlər tərəfindən idarə olunurdu ki, onların üzərində vahid mərkəz yox idi [5, 167].

1507-ci ilin oktyabr ayında Portuqaliya flotu Hörmüzə yaxınlaşdı. Bu zaman I Şah İsmayılın kifayət qədər hərbi qüvvəsi yox idi. O, Hörmüzə kömək üçün ancaq 500 əsgər göndərdi, bu da adanı işğaldan qoruya bilmədi. Portuqallar Hörmüz üzərinə 1,5 min tümən kontribusiya qoydu və ada əhalisi hər ildə 4,5 min tümən xərac verməli idilər. Ancaq yerli əhalinin müqaviməti ilə qarşılaşan və öz aralarında da ziddiyyətlər olan işğalçılar 1508-ci ildə adanı tərk etməyə məcbur oldular. Bir qədər sonra Səfəvilərin topa ehtiyacı olduğunu hiss edən Alfons de Albukerk Şahla münasibətlər yaradıb körfəz məsələsini müharibəsiz həll etmək qərarına gəldi. Hindistan vitse kralı Alfons de Albukerk bu məqsədlə Səfəvi sarayına 1509-cu ildə Rui Qomezanı və 1513-cü ildə isə Miquel Ferreyrunu göndərdi və Osmanlı dövlətinə qarşı artileriya, ordu, həm də

donanma ilə yardımlarını təklif etdi. Həqiqətdə isə vitse-kral şaha real kömək etmək fikrində deyildi. O, Şahı boş vədlərlə aldadıb osmanlılarla münasibətləri tam gərginləşdikdə Hörmüzü ondan qoparıb almaq istəyirdi [9, 35-36]. Səfəvi dövlətindən isə Qoaya hərbi yardım almaq üçün elçi yola salındı. Alfons de Albukerk danışıqları hiyləgərcəsinə əlverişli məqama qədər uzatdı. Artıq I Şah İsmayılın Sultanla gələcəkdə müharibəni davam etdirib itirilmiş torpaqları geri almaq üçün, Portuqaliyanın hərbi yardımına ehtiyacı yarandı və elə buna görə də 1514-cü ildə Alfons de Albukerklə müqavilə bağlamağa məcbur oldu. Tərəflər arasında 1514-cü ildə imzalanmış müqavilədə göstərilirdi:

1. Portuqaliya dəniz qüvvələri Şaha Bəhreyn və Qətiflə savaşda kömək edəcəkdir;
2. Hər iki dövlət, Səfəvi və Portuqaliya Ali Osmana qarşı müttəfiq olacaqdır;
3. Bəlucestan və Mokran nahiyəsində sahil döyüşlərində Portuqaliya hərbi dəniz qüvvəsi Səfəvilərə yardım edəcəkdir. Həm də Səfəvilər Hörmüzdə Portuqaliyanın xeyrinə öz hüquqlarından imtina edəcək və əmirlərini Portuqaliyaya xərac verən kimi tanıyacaqdır [5, 167; 9, 36].

Bu Səfəvilər ilə Portuqaliya arasında ilk razılaşma sənədi idi. Lakin bu saziş tərəflərin bərabər hüquqlu münasibətlərini özündə əks etdirmirdi. 1515-ci ildə Hörmüz tutulduqdan sonra Portuqaliyalılar Hörmüz adası və Fars körfəzinin digər adalırında da hərbi qalalar tikdikdə, Səfəvilərlə toqquşdular və adaların əhalisi də bu toqquşmalardan və portuqaliyalıların oraya daxil olmasından xeyli zərər gördülər [5, 167; 9, 35, 36]. Beləliklə, körfəzdə Hörmüzdən sonra başqa adaları da tutan portuqallar Səfəvi mülklərinə çox yaxınlaşıb, onlara Hindistanda özlərinin dəniz ticarəti şərtlərini qəbul etdirməyə cəhd etdilər [3, 97].

Portuqaliya Hörmüzü tutduqdan sonra adanın təsərrüfatının bütün sahələrini ələ keçirib yerli hakimin gömrük rüsumu almaq hüququnu da qəsb etdilər. Hörmüzdə müstəmləkə ağalığı rejimi bərqərar oldu. I Şah İsmayıldan sonra I Şah Təhmasib (1524-1576) hakimiyyəti illərində İran körfəzində portuqallara qarşı mübarizəni təşkil edə bilmədi. Əksinə Səfəvi-Osmanlı savaşları burada Portuqaliya ağalığına əlverişli şərait yaratdı. Portuqaliya 1528-ci ildə İran körfəzinin şimal-qərbində dayaq məntəqələri yaratmaq üçün bura göndərdiyi hərbi gəmilər növbəti il Hörmüzə dönsə də, körfəzin şimalındakı limanı və Küveyti də işğal etdilər. Bu zaman Səfəvi dövlətinin osmanlılara qarşı savaşda müttəfiqə ehtiyacı olmasından portuqallar hiyləgərcəsinə istifadə edib, öz müstəmləkəçilik planlarını körfəzdə Səfəvilərə hərbi yardım göstərməklə uğurla həyata keçirdilər. Bəzi məlumatlara görə I Şah Təhmasib 1549-cu ildə onlardan 20 top, 10 min əsgərdən ibarət qoşun almışdı [9, 38; 3, 97]. XVI əsrin 50-ci illərində İran körfəzinə Osmanlı hərbi dəniz donanması daxil oldu. Burada onların apardıqları uğurlu müharibələrdə Qətəri, Bəsrəni tutdular və Portuqaliya öz müstəmləkələrini itirmək təhlükəsi ilə üzləşdi. Osmanlı dövləti məşhur dənizçi Sidi Əli Rəisin (Piri Rəis) başçılığı altında Maskata göndərdiyi hərbi flot buranı tuta bildi və portuqal qubernatoru da əsir düşdü. Osmanlı donanması Hörmüzü də mühasirəyə aldı. Bu zaman İran körfəzində Osmanlıları sıxışdırıb çıxarmağa çalışan Portuqaliya yenidən Səfəvilərlə diplomatik əlaqələri bərpa etdilər. Portuqaliya kralı III Juanın (1552-1557) göndərdiyi elçi

1551-ci ildə Qəzvində pis qarşılanmadı. Ancaq ikinci dəfə 1574-75-ci ildə Portuqaliyadan gələn elçiləri I Şah Təhmasib o qədər də yaxşı qəbul etmədi. Don Sebestyanın göndərdiyi nümayəndə heyətini isə Şah qəbul etməmişdi. Ona görə ki, portuqallar körfəzdə müsəlman əhalisinə ağır işgəncələr verirdilər. Digər tərəfdən Portuqallarla müsbət danışıqlar Amasiya müqaviləsini poza bilərdi [9, 38; 5, 168; 1, 390].

Səfəvi hökmdarı Sultan Məhəmməd Xudabəndə dövründə Portuqaliyanın müstəmləkələrində ciddi dəyişiklik meydana gəlir. Ona görə ki, Portuqaliya özü İspaniya ölkəsinə birləşdirildi. İspanlıların Portuqaliya üzərində ağalığı I Şah Abbasın nəvəsi I Şah Səfinin hakimiyyəti dövrünə qədər davam etmişdi. Şərq yarımkürəsində portuqallara məxsus bütün mülklər bu zaman nəhəng müstəmləkə imperiyasına çevrilmiş İspaniyanın əlinə keçir. Belə ki, İspaniya 1580-cı ildən 1640-cı ilədək, yəni təqribən 60 il Portuqaliyanı da hakimiyyəti altında saxlamışdı. Lakin portuqaliyalılar yenə də Fars körfəzində fəal idilər. Onların burada ağalığı I Şah Abbasın hakimiyyətinə qədər davam etmişdi [9, 38; 5, 168].

İspaniya kralı II Filipp daxili və xarici ticarət işlərinə ciddi maraq göstərir və Səfəvi dövləti ərazisində xristianlara tam sərbəstlik verilməsinə çalışırdı. Bu məqsədlə öz arzu və istəklərini Şaha çatdırmaq üçün Səfəvi dövlətinə elçi göndərdi. İspan kralı elçi vasitəsilə Şaha Osmanlı dövlətinə qarşı müqavilə bağlamağa hazır olduğunu da çatdırır. O Santo Kruzu keşiş Simon Moraleslə birlikdə Səfəvi dövlətinə göndərmişdi. Simon Morales uzun müddət Xudabəndənin sarayında yaşamış və onun böyük oğlu Həmzə Mirzəyə riyaziyyat və nücumdan dərs demişdir. Simon Moralesin nümayəndə heyəti İspaniyaya qayıdarkən, gəmiləri tufana düşüb batmış və gəmi heyətindən heç kim xilas olmamışdır [5, 168].

Hörmüz adası məsələsi I Şah Abbas dövründə Səfəvi dövləti ilə Portuqaliya arasındakı çəkişmələrin mühüm mövzusu oldu. 1598-ci ildə Alfonso Kordero və Nikolo de Melo adlı iki İspaniya keşişi Səfəvi dövlətinə gəlib İsfahanda I Şah Abbasla görüşdülər. Alfonso Kordero Fransiskan Nikolo de Melo isə dominikan katolik təriqət rahibi idi. De Melo Hörmüz adası keşişi tərəfindən nümayəndə olmaqdan əlavə papanın da nümayəndəsi idi. I Şah Abbas tərəfindən çox yaxşı qarşılanan keşişlər danışıqlardan sonra vətənlərinə qayıtdılar [5, 168].

I Şah Abbas 1599-cu ildə Avropa dövlətləri ilə hərbi-siyasi müqavilə bağlamaq məqsədi ilə Hüseynəli bəy Bayatın başçılığı altında qərbə səfirlik heyəti göndərmişdi. Onlar bir çox Avropa dövlətlərində, o cümlədən İspaniya və Portuqaliyada diplomatik danışıqlar aparmışdılar. Bu danışıqlarda hərbi-siyasi məsələlərlə yanaşı, ipək ticarəti də diqqət mərkəzində olmuşdu. Səfirliyi İspaniyada III Filipp özü qəbul etmişdi. Bu barədə səfirliyin katibi Oruc bəy Bayatın «Səfərnamə»sində ətraflı məlumat vardır. Ancaq Oruc bəy İspaniyada xristianlığı qəbul edib Vətəninə dönməmiş və 1605-ci ildə İspaniyada öldürülmüşdü [3, 25; 5, 169].

1602-ci ilin fevral ayında Portuqaliya və İspaniya keşişlərindən üç nəfər Jeramino de Kruz, Kristafolo de Spiritu Santo, Antonio de Quvea Səfəvi dövlətinə gəldilər ki, onların hər üçü Sen Aqusten dini cəmiyyətindən idilər. Onlar Məşhəddə təmtəraqla qəbul olundular. Şaha İspaniya hökmdarından məktub və hədiyyələr də gətirmişdilər. Şah Abbasın bu nümayəndə heyətini hörmətlə qarşılaması onun İspaniya padşahı III Filipp ilə Osmanlı dövləti əleyhinə saziş imzalamaq məqsədindən irəli gə-

lirdi. Bu zamana qədər qeyd olunan ölкədən gələn elçilərlə danışıqlar əsasən Səfəvi ipəyinin İspaniyaya satılması və Osmanlı dövlətinə qarşı müqavilə bağlanması ətrafında gedirdi [5, 169] .

I Şah Abbas 1604-cü ildə Antonio de Quvea ilə öz səfiri Allahverdi bəyi İspaniyaya yola saldı. Şah səfirlə İspaniya кralı III Filippə məкtub göndərmişdi. Allahverdi bəy İspaniya ilə Osmanlı dövlətinə qarşı ittifaqın möhкəmlənməsinə nail olmalı və müqavilə bağlamalı idi [5, 169]. Antonio de Quvea yola düşəndən bir qədər sonra İspaniyadan Luis Fereira de Lazerda Səfəvi dövlətinə gəlir [5, 169-170].

Diplomatiк əlaqələrin genişlənməsinə baxmayaraq İran кörfəzində İspaniya ağalığı Səfəvilərlə İspaniya arasındaкı duruma bir qayda olaraq mənfi təsir göstərirdi. I Şah Abbas Qərb dövlətləri başçıları arasındaкı hərbi-siyasi gərginliкdən bacarıqla istifadə edib, 1601-ci ildə Bəhreyndən ispanları qovmuşdu. Bu hadisə Hörmüzün portuqaliyalı haкiminin narazılığına səbəb olmuş və III Filipp bu məsələ ilə əlaqədar olaraq Antonio de Quveanı Səfəvi dövlətinə göndərməyi qərara alır. III Filipp I Şah Abbasa 1607-ci ildə yazdığı məкtubda Səfəvi elçisinin hələ İspaniyaya çatmadığını, İspan donanmasının Osmanlı donanmasına ciddi zərbə vurduğunu qeyd etdiкdən sonra Səfəvilər tərəfindən Bəhreynin tutulmasına narazılığını da bildirirdi. Antonio de Quveanın rəhbərliк etdiyi yeni elçilər heyəti 1607-ci ildə İsfahana çatdı. Şah onları dəfələrlə qəbul etmiş və hərbi-siyasi mövzuda danışıqlar aparılmışdı. Bu danışıqların çoxunda Osmanlı dövlətinə qarşı müqavilə bağlamaq,müharibəyə başlamaq mövzusu gündəmdə olmuşdu. Antonio de Quvea mərкəzdən aldığı təlimata uyğun olaraq Səfəvi dövlətində çox qalmaq fiкrində olsa da, Şah onu tezliкlə öz elçisi Tengiz bəy Rumlu ilə İspaniyaya göndərməyi qərara aldı. Antonio de Quvea Şah Abbasa İspaniya кralından, Vatiкandan məкtublar da gətirmişdi [5, 170; 1, 408].

I Şah Abbas 1608-ci ildə Robert Şerlini xüsusi tapşırıqla Avropa dövlətlərinə göndərdi. Robert Şerli Avropanın dövlət başçıları və papanı xəbərdar etdi кi, Səfəvi dövləti Osmanlılara qarşı müharibədə onlarla həmкarlıq etməyə hazırdır. O, eyni zamanda I Şah Abbasın qərblə ticarət əlaqələrini genişləndirməкdə maraqlı olduğunu bildirir. Robert Şerli və yoldaşları bir neçə ölкədə danışıqlardan sonra Barselonaya getdilər. Şerli qərara almışdı кi, III Filiplə görüşüb, I Şah Abbasın məкtublarını şəxsən onun özünə təqdim etsin (1610). Ancaq İspan кralı onu çox soyuq qarşılamış və aralarındaкı danışıqlar uğursuz olmuşdu. Əslində İspaniyaya Səfəvi dövləti səfiri ünvanı ilə gələn Şerli ingilis olduğuna görə III Filipp ona etimad göstərməmişdir. Digər tərəfdən isə Antonio de Quvea ilə birliкdə I Şah Abbasın elçisi Tengiz bəy də 1610-cu ildə İspaniyaya çatmış və III Filipə Şahın məкtub və qiymətli hədiyyələrini də gətirmişdilər [5, 171].

Antonio de Quvea iкi ildən sonra III Filippin və papanın elçisi кimi yenə də Səfəvi dövlətinə göndərilir. Tengiz bəy də кraldan icazə alıb onunla vətəninə qayıtmışdı. Bu səfər zamanı Tengiz bəy siyasi səhvlərə yol verdiyinə və Şahın icazəsi olmadan onun ipəyini başqa yerə çatdırıb məsarifə yol verdiyinə görə ölüm cəzasına məhкum edilir. Bu hadisəyə görə Antonio de Quvea da məsuliyyətə cəlb edilmişdi. Şah onu Şiraz həbsxanasına saldırmış, ancaq bir qədər sonra azad olmuş və Hörmüz təriqilə İspaniyaya qayıtmışdır [5, 171].

I Şah Abbas Avropa dövlətləri arasındakı münasibətləri dərindən öyrənib, onların aırasındakı çəkişmələrdən bacarıqla istifadə edərək, 1614-cü ildə ispanları Hambrundan çıxarır. Ancaq Şah İran körfəzini tutmağa tələsmir. Ona görə ki, İspaniya başqa Avropa dövlətləri ilə Səfəvilərə qarşı birləşə bilərdi. Buna görə də o, 1615-ci ildə yenə Robert Şerlinin başçılığı altında İspaniyaya elçilər göndərdi. İran körfəzini tutmağa hazırlaşan Şah III Filippi diplomatik danışıqlarla arxayın salmaq istəyirdi. Ancaq III Filipp Səfəvi dövlətinin Bəhreyn və Hambrunu tutmasından, I Şah Abbasın İngiltərə ilə yaxınlaşmasından çox rahatsız idi. Elə buna görə də 1614-cü ildə Don qarsiya de Silvanı Səfəvi sarayına göndərdi. O, Şahla barışığa gəlib Bəhreyn və Hambrunu geri almalı, Səfəvi dövlətindən digər Avropa tacirlərinin çıxarılması tələbini Şaha çatdırmalı idi. Ancaq onun Şahla 1618-ci ildə Qəzvində apardığı danışıqlar uğursuz oldu. Artıq bu zaman, yəni 1615-ci ildə I Şah Abbas Ost-Hind şirkətinin nümayəndələrindən Still və Qlouzerə verdiyi fərmanda onların Cəsq limanında faktoriya təsis etməklərinə icazə vermişdi [1, 408; 2, 325].

I Şah Abbas 1618-ci ildə Osmanlı dövləti ilə sülh sazişi imzaladı və portulaqiyalıları Səfəvi ölkəsində sıxışdırmağa başladı. Ona görə ki, Portuqaliya elçiləri ilə gedən danışıqlarda artıq tam aydın olmuşdu ki, portuqaliyalıları hərbi ittifaqdan daha çox İran körfəzində ağalıq və bir də ipək maraqlandırırdı [5, 169; 5, 108-109].

İspaniya padşahı III Filipp məktub vasitəsilə Şah Abbasdan tələb etdi ki, portuqaliyalıların əlində, lakin İspaniyanın nüfuzu altında olan əraziləri İspaniyaya qaytarsın. I Şah Abbas nəinki onun tələblərini yerinə yetirdi, əksinə portuqaliyalıların əlində olan Hörmüz və b. adaları geri almaq fikrində idi. Bu məsələ Səfəvi dövləti ilə İspaniya arasında münasibətlərin daha da mürəkkəbləşməsinə səbəb oldu. Nəticədə Səfəvi dövləti İngiltərə ilə Portuqaliya əleyhinə birləşdi. 1619-cu ildə Cəsq, Bəndər Abbas, Şiraz və İsfahanda İngiltərənin ticarət faktoriyaları yaradıldı. Şah ingilislərə geniş imtiyazlar verdi [9, 46].

1621-ci ildə İngiltərə ilə Səfəvi dövləti arasında müqavilə bağlandı. Bu müqaviləni I Şah Abbas azacıq dəyişikliklərlə qəbul etdi. Müqavilə əsasında ingilislər ilk növbədə Keşmin qalasını ələ keçirdilər, sonra Hörmüz adasına hücum etmək üçün Hamburun limanına qayıtdılar və 1622-ci ildə İngiltərə gəmiləri Səfəvi dövlətinin Fars bəylərbəyi İmamqulu xanın müşayiəti ilə Hörmüz qalasına doğru hərəkət etdilər. İngilislərin köməyi ilə iki ay ərzində Kiş və Hörmüz adasını ələ keçirdilər [6, 1544, 1547, 1549-1551].

Müharibədə əldə edilmiş qənimətlər, o cümlədən top, mancanaq, ərradə, zənburək və s. Hambrun, Şiraz, İsfahan və Bağdada göndərilib nümayiş etdirildi [5, 173]. İsgəndər bəy Münşi Türkman «Tarix-i aləm aray-i Abbasi» adlı əsərində Hörmüzün azad edilməsi uğrunda mübarizəni geniş təsvir etmiş, ancaq I Şah Abbasın İran körfəzi məsələsində Avropa dövlətləri ilə diplomatik danışıqlar, xarici siyastəin əsas istiqamətlərinə də toxunmuş və I Şah Abbasın sonralar Hamburun limanını xeyli genişləndirib, həmin limanı öz adına Bəndəre Abbası (Abbas limanı) adlandırması barədə də məlumat vermişdir [4, 979-983]. Bundan sonra Abbas limanı Fars körfəzində mühüm ticarət mərkəzinə çevrildi və Hörmüz adasının isə beynəlxalq ticarətdə rolu azaldı. 1625-ci ildə portuqallar Hörmüzü yenidən ələ keçirməyə cəhd göstərsələr də, niyyətləri

baş tutmadı. Buna baxmayaraq, Şah Abbas Portuqaliya barədə əvvəlki sərt siyasətini dəyişərək, onunla müqavilə bağladı. Bu müqaviləyə görə Portuqaliya İran körfəzindəki keçmiş müstəmləkələrinin Səfəvi dövlətinə məxsus olduğunu qəbul etdi. Bunun əvəzində I Şah Abbas Kişdə toplanan gömrüyün 25 min livr dəyərində olan bir hissəsini onlara güzəştə gediləcəyini vəd etdi. Şah Abbasın portuqallarla bağlı güzəştli ticarət siyasəti yeritməkdə əsas məqsədi portuqalları körfəzdə güclənməkdə olan ingilislərə qarşı qoyaraq, burada tarazlıq yaratmaqdan ibarət idi. Bir tərəfdən də Qərb dövlətləri arasında Hörmüzdə ağalıq üstündə rəqabət davam edirdi. Rocer Seyvori yazırdı ki, Hörmüz üç mühüm strateji məntəqədən biri olub, sahibinə İran körfəzi, Hind okeanı, Qırmızı dəniz və beləliklə, Cənub-Şərqi Asiya ticarətinə tam nəzarət etmək imkanı verirdi [8, 212].

Səfəvi dövləti Hörmüzü tutandan sonra portuqaliyalılar Məsqət və Bəsrədə ticarət idarələrinin fəaliyyətini aktivləşdirib, Şah Abbasdan da Qonqda ticarət idarəsi açmaq və burada qala tikmək üçün icazə aldılar. Portuqallar Qonqda da yerləşdilər və burada onların fəaliyyəti I Şah Abbasdan sonra da mövcud olmuşdur. Onlara I Şah Abbasın dövründə Bəhreyn sahillərində mirvari çıxarmağa da icazə verilmişdi. Ancaq II Şah Abbasın hakimiyyəti dövründə – 1650-ci ildə portuqalların Məsqətdə fəaliyyəti məhdudlaşdırıldı. O cümlədən, Qonq limanında da əvvəlki hüquqlarını itirdilər. Hansı ki, I Şah Abbas Qonq limanında onların mallarını gömrükdən azad etmişdi və hətta bu limanın gömrük rüsumundan əldə edilən gəlirin yarısı onlara çatırdı. Portuqallar I Şah Abbas zamanı onlara verilmiş bu hüquqlarının əllərindən alınmasına göz yummur və açıq şəkildə imtiyazlarının bərpa olunmasını tələb edirdilər [5, 174]. Ancaq digər Avropa dövlətlərinin fəaliyyəti İran körfəzində genişləndikcə portuqallar təkcə İran körfəzi deyil, Hind okeanında da əvvəlki üstünlüklərini itirirdilər. Beləliklə, onlar XVII əsrin II yarısında Qonq limanında da hərbi və ticarət bazalarını itirdilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, uzaq keçmişdən 1870-ci ilə qədər. Bakı: 1996, 869 s.
2. Don Qarsiya de Silva. Səfərname-ye Don Qarsiya de Silva Fiqeroa. Tərcome-ye Qulamrza Səmii. Tehran, 1363, 530 s.
3. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: 1993, 301 s.
4. İsgəndər bəy Türkan Münşi. Tarix-i aləm Aray-i Abbas. C. I-II, Tehran, h. 1350, s. 1-607; 606-1235.
5. Məryəm Mərhəmədi. Tarix-e siyasi və ectimai-ye İran dər əsre Səfəvi. Tehran: 1381, 282 s.
6. Nəsrullah Fəlsəfi. Zendeqani-ye Şah Abbas əvvəl. C. IV-V, Tehran: h. 1348, s. 1677-2102.
7. Pyetro della Valle. Səfərname-ye Pyetro della Valle. Tərcome-ye əz mətne əsli-ye İtaliyai doktor Şüaəddin Şəfa. Tehran: h. 1348, 483 s.
8. Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: 2006, 397 s.
9. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М.: 1982, 188 с.

## СВЯЗИ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА С ПОРТУГАЛИЕЙ И ИСПАНИЕЙ

**А.Б.БАХШАЛИЕВ**

**РЕЗЮМЕ**

В конце XV начале XVI веков Португалия в результате своих великих географических открытий вышла на берега Индийского океана. Обещая помочь Сефевидскому государству в военном деле, Португалия поставила это государство в зависимость от себя. На самом же деле Португалию интересовал шелк и желание насильно насадить христианство на данной территории. В данном деле сотрудником Португалии выступила Испания. Но Сефевидское государство смогло вовремя взять власть в свои руки и освободиться от гнета Португалии и Испании.

## THE RELATIONS OF SEPHEVIDS STATE WITH PORTUGAL AND SPAIN

**A.B.BAKSHALIYEV**

**SUMMARY**

At the end of XV century – at the beginning of XVI century Portugal as the result of its great geographic discoveries got to the coast of the Indian Ocean. Promising to help Sephevids state with military affairs, Portugal made this state subordinate to itself.

In fact, Portugal was interested in the silk and its aim was to set Christianity in the territory. Spain was its ally here. However, Sephevids state managed to get the authority back and regain its independence.